

# Gülxani Pənahın "Əsrin Oğuznaməsi"nə...



*Salatın Əhmədli*

**Gülxani Pənahın II Qarabağ Müharibəsində vətən uğrunda canını fəda edən mərd oğullarımızın böyük döyüş yolundan bəhs edən "Əsrin Oğuznaməsi" (Bakı, SkyG, 2021. 434 səh.) kitabı çap olunub.**

Kitab türk-Azərbaycan hərb tarixinin şanlı səhifələrini öz igidlikləri ilə yazan, II Qarabağ Müharibəsinin qalibləri olan vətən oğullarımızın döyüş yolundan, mənalı həyatından bəhs edir. Kitabda Oğuz rayonunun iyirmi beş şəhidinin timsalında müharibənin bütün ağırlığını çiyinlərində daşıyan, düşmən bayraqlarını ayaqları altında əzərək qələbə bayrağımızı zirvələrdə dalğalandıran Azərbaycan əsgərlərinin-cəsur oğullarımızın müharibədə göstərdiyi qəhrəmanlıq, Vətən uğrunda qanlı döyüşlərdə qurban gedən şəhidlərimizin göstərdikləri mərdlik və şücaət öz bədii ifadəsini tapmışdır.

Kitabı Dövlətçilik tariximizdə, eləcə də dünya hərb tarixinə belə sığmayan 44 günlük II Qarabağ Müharibəsində qazandığımız möhtəşəm QƏLƏBƏNİN, müqəd-dəs bildiyimiz vətən sevgimizin, düşmənə nifrətimizin bədii salnaməsi də adlan-dırmaq olar...

*Tax düşmənin sinəsinə süngünü,*
*Qov yurdumdan o çaqqalı, tülkünü,*
*Birə ilə doldur onun kürkünü.*
*Qorxusundan qoy tutulsun dizləri,*
*Azərbaycan əsgəri!*

*İti ağlın, sərt baxışın, şux qəddin,*
*Düşmənə göz dağıdır, bildir həddin.*
*Qarabağda düşmən quran hər səddi,*
*Məzar elə, göm torpağa, leşləri,*
*Azərbaycan əsgəri!*

Gülxani Pənah kimi hər birimizə, hər bir azərbaycanlıya vətən yolunda canını fəda edən hər bir şəhid dogmadır, əzizdir. Torpaq uğrunda şəhid olan oğullarımız bu millətin, bu xalqın, bu dövlətin balasıdır…

*Vuran ürəyimin sirdaşı sənsən,*
*Bir tək balamın qardaşı sənsən,*
*Bu yurdun qayası, dağ-daşı... sənsən,*
*Vüqarlı, qüdrətli uca Şəhidlər!*

Şəhid qanıyla suvarılan, şəhid qanıyla dirçələn torpağa müqəddəs baxışlar genimizdən gəlir. Xalq, torpaq yolunda qurban gedən oğullar özləri elə torpaq, vətən qədər dəyərlidir…

*Sən torpaq, sən oba, Sən Vətən, bağsan...*
*Hər ana köksünə çəkilən dağsan,*
*Ölsən də meydanda əbədi sağsan,*
*Hər zaman, hər zaman mərdim Şəhidlər!*

II Qarabağ müharibəsində şəhid olan uç minə yaxın vətən oğullarının qəhrə-manlığını özündə əks etdirən yüzlərlə bədii nümunələr mətbuatda çap olunub.

Hələ 90-cı illərdə I Qarabağ müharibəsində erməni hərbi birləşmələrinə və onların havadarlarına qarşı müharibədə şəhid verdiyimiz on minlərlə vətən oğulları haqqında və bu şəhidlərin Qarabağ uğrunda döyüşlərdə göstərdiyi igidliklərdən bəhs edən çox sayda kitab çap olunmuşdu.




O zaman istedadlı qələm sahibi, gənc yazar Gülxani Pənahın "Oğuz şəhidləri və itkinləri" ("Mütərcim" nəşriyyatı. 1995. 350 səh.) kitabı çap olundu, zamanında yazılmış kitab kimi yüksək qiymətləndirildi. "Oğuz şəhidləri və itkinləri" kitabının mükəmməl bir bədii əsər keyfiyyəti daşıması da yazıçının uğurları kimi yazılan resenziyalarda bildirilirdi.

Hər bir şəhid ailəsiylə şəxsən görüşən Gülxani Pənah ailə üzvlərindən, şəhid hərbçilərin döyüş dostlarından eşitdiyi reallıqları, o mərd oğulların həyatını, vətən sevgisini əbədi olaraq yaddaşlarda qalması üçün qələmini süngüyə çevirdi.

Gənc nəslin milli vətənpərvərlik ruhunda böyüməsində, bu gün II Qarabağ Müharibəsində qazanılan qələbədə Gülxani Pənahın "Oğuz şəhidləri və itkinləri", "Yurd yanğısı", "Bura Vətəndir", "Qarabağ dərdi", "Fələk belə qismət yazmaz, Xocalı" kimi onlarla bədii kitablarının da böyük rolu danılmazdır.

Bu gün G.Pənahın qələmə aldığı "Əsrimizin oğuznaməsi" kitabı "Oğuz şəhidləri və itkinləri" kitabının davamıdır desək yanılmarıq.

Abid Asif oğlu Məmmədov, Anar Talıb oğlu Əliyev, Beyrək Seyfullah oğlu Fezullayev, Elman Telman oğlu Babayev, Elşən Elbrus oğlu Əhmədli, Elşən Rövşən oğlu Nurəliyev, Fərid Loğman oğlu Lillahov, Fərid İmran oğlu Zaməddinov, Kamil Araz oğlu Atakişiyev və digər şəhidlərimiz Oğuz bölgəsində doğulub boya-başa çatan, vətənin dar günündə silaha sarılıb düşmənə qan udduran, işğal altında olan torpaqlarımızın azadlığı yolunda canından keçən igidləridir...

I Qarabağ Müharibəsində şəhid olan oğuzluların getdiyi müqəddəs yolun yolçularıdır...

44 gün ərzində dünya hərb tarixində yeni səhifələr açan, işğal olunmuş vətən torpaqlarını ildırım sürətiylə düşmənin başını əzərək azad edən, bir sözlə, 44 günlük tarixi qələbəmizin əldə olunmasında misilsizi xidmətləri olan Azərbaycanın igid oğullarının-şəhid, qazi, veteran oğullarının Ali Baş Komandan başda olmaqla qazandığı misilsiz qələbəni, xalqın milli birlik ruhunu özündə əks etdirən əsərlərin müəllifi Gülxani Pənahın zəngin yaradıcılığına bələdik. Son ildə çap etdirdiyi "Bütöv bir canıq -Azərbaycanıq", "Vətən adlı dinim var" kimi kitablarının ardınca ərsəyə gətirdiyi "Əsrin Oğuznamə"si kitabının bədii estetik dəyəri də diqqəti çəkir.

Kitab bədii quruluşuna görə bütöv bir dastan xarakteri daşıyır. Əsl qəhrəmanlıq dastanıdır.

Minilliklərdən üzü bəri yaranan, bizə gəlib çatan ənənəvi dastan keyfiyyətləri ilə zəngindir. "Kitabi-Dədə Qorqud" kimi tarixi qəhrəmanlığı, milli-mənəvi dəyərlərimizi özündə əks etdirən "oğuznamə"lərin müasir versiyasıdır.

Gülxani Pənahın qəhrəmanları da Dədəm Qorqudun şəninə boy boyladığı, soy soyladığı müasir beyrəklər, anarlar, rəvanlar, hikmətlər, fəridlərdir - torpağına kəm baxanların gözlərini ovan, düşmən üzünə qartal kimi şığıyan, yağılarda qisasımızı qoymayan Azərbaycan əsgəridir.

*Düşməníndə qisasını qoyma sən,*
*Tök qanını, iç qanını, doyma sən.*
*Kəm gözləri öz əlinlə oymasan,*
*Olmayacaq bil ki, sonu dərdlərin,*
*Azərbaycan əsgəri!*

*Qusdur ona yediyini torpaqda,*
*Qisas gözlər çəmən, çiçək, yarpaq da,*
*Kəs ayağın patavada, sapoqda.*
*Qarış-qarış azad elə elləri,*
*Azərbaycan əsgəri!*

Hələ 44 günlük müharibənin qələbə toxumunu cücərdən Aprel döyüşçülərinə ünvanladığı misralarında Gülxani Pənah işğal altında olan torpaqlarımızın gələcək taleyinin öz əlimizdə olduğunu yazırdı, imperiyaların və onların əlaltılarının öz mənafeləri naminə yaratdığı ATƏT kimi qeyri-obyektiv, ədalətsizliklərə yol açan qurumlara deyil, vahid bütöv Azərbaycan naminə xalqının milli birliyinə arxalanmağı məqbul sayırdı və fikirlərində haqlıydı...

*İçindəki yatan vulkan*
*baş qaldırıb, uğuldayır...*
*Səsin çatıb yer üzünə,*
*toplar, tanklar guruldayır...*

*ATƏŞKƏSə güvənsək də*
*güvənimiz boşa çıxdı,*
*anladın sən.*
*"Nəyi, kimi gözləyirəm?" -*
*Qeyrətini danladın sən...*
*"ATƏT-MATƏT yalan" - dedin,*
*"Yağı düşmən, varam" - dedin...*
*"Döyüş mənim alın yazım",*
*bəyan etdin dığalara,*
*Bir od qoydun yağılara...*
*Aprel döyüşçüsü!*

Poladların, raqiflərin… qətiyyətli addımları hər qarış torpaq uğrunda mübarizəyə hazır oğulların yetişdiyini, hərb tarixinə qızıl hərflərlə yazılacaq hərbi peşəkarlığa yiyələndiyimizi artıq bizə diktə edirdi… onu da diktə edirdi ki, zaman gəlib çatıb. Bizim güclü Dövlətimiz, qüdrətli sərkərdəmiz, məğlubedilməz Ordumuz, güclü hərbi texnikamız var.

30 ildir sülh yoluyla torpaqlarımızın geri alınacağını gözləmişik, bəsdir, artıq səbrimiz püskürməyə hazır vulkana dönüb… və nəhayət o vulkan püskürdü…

*Otuz illik mücadiləm*
*44 günlük qələbəylə sona yetdi.*
*Üç min şəhid 44 gündə*
*Qarabağa qurban getdi...*
*Candan keçdik, qandan keçdik,*
*Zəfər çaldıq haqq yolunda...*
*Əyilməyən qüdrətimiz*
*bu dünyaya bəyan oldu.*
*Uca Tanrı haqq yolunda 44 gündə*
*gecə-gündüz sanki bizə hayan oldu...*
*Otuz ilin həsrətinə 44 gündə son qoyuldu,*
*Düşmənlərin ürəkləri oyum-oyum oyuldu...*
*Zəfər bizim, qazanımız mübarək!*

**Burada Gülxani Pənah bir ifadə işlədib; "Zəfər bizim, qazanımız mübarək!". "döyüşlərdə "qəzamız mübarəkdir" - deyirik... Doğrudan da, 30 il idi ki, mühribədəydik, 30 il idi ki, hər gün şəhid verirdik, ocağa qoyulan qazanlarımızın görkəmindən qəm-kədər yağırdı, o qazanlarda halva çalınırdı, yas şorbası bişirilirdi. İçinə göz yaşlarımız da axırdı... şükürlər olsun ki, artıq o məclis qazanlarımızın da üzünə mübarək qapılar açıldı... innən belə inşallah o qazanlarda toy şorbaları bişirərik... yerində işlənmiş ifadədir "qazanımız mübarək". Amin allah!**

**(ardı var)**

ədalət.- 2022.- 12 mart.- S.7.